# Tələbələrin simfonik orkestrlə birgə konserti olub



Azərbaycan Milli Konservatoriyasının tərkibində Musiqi Kollecinin milli musiqimizin inkişafında, incəsənətin bu növü üzrə peşəkar milli kadrların hazırlanmasındakı mühüm rolu hər kəsə məlumdur. İfaçılıq sənətimizin bir çox korifeyi, tanınmış sənət ustaları məhz bu qocaman musiqi ocağının məzunlarıdır. Hazırda da kollecdə öz ustadlarının yerini tuta biləcək istedadlı gənclər təhsil alır, seçdikləri ixtisaslara, sənətin sirlərinə həvəslə yiyələnirlər. Mayın 6-da M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında kollecin bir qrup tələbəsinin verdiyi konsertdə bunun bir daha əlani şahidi olduq.

İstedadlı tələbələrin öz bacarıqlarını nümayiş etdirməsinə, böyük səhnəyə alışmasına şərait yaradılması məqsədi ilə vaxtaşırı təşkil olunan konsertlər kollecdə artıq çoxdan ənənə şəklini alıb. Həmin silsilədən növbəti tədbir olan və ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr edilən konsert Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə təqdim olundu. Kollecin müəllim və tələbələrinin, tanınmış sənət ustalarının, valideynlərin, çoxsaylı qonaqların və KİV nümayəndələrinin iştirak etdikləri konsert böyük müvəffəqiyyətlə keçdi və tamaşaçılar tərəfindən dəfələrlə alqışlandı. Tələbələr maestro Niyazinin "Arzu", K.Veberin "Konsertino", K.Sen-Sansın "İntroduksiya və rondo-kapriççiozo", A.Gedikenin "Konsert etüdü", G.Perqolezinin "Simfoniya", H.Xanməmmədovun "Konsert №2" (I hissə), F.Şopenin "1 saylı konsert" (op.11, I hissə), S.Raxmaninovun "2 saylı konsert" (op. 16, I hissə) əsərlərini ifa etdilər.

Beynəlxalq müsabiqələr laureatları Günel Ələkbərlinin (III kurs) skripkada, Cəmil Abdullayevin (II kurs) trubada, Kamal Qədirovun (III kurs) trombonda, Eldəniz Ələkbərzadənin (IV kurs), Günel Rizvanovanın (IV kurs) fortepianoda , respublika müsabiqəsi laureatları Mirzəhra Muradovanın (IV kurs) mahnı, Rəhim Xudaverdiyevin (IV kurs) klarnetdə, beynəlxalq və respublika müsabiqələri laureatı İbrahim Babayevin (IV kurs) tarda colo ifaları onların klassik və müasir simfonik musiqini dərindən bilmələri ilə yanaşı, müxtəlif alətlər üzrə mahir ifaçılar kimi yetişdiklərini də nümayiş etdirirdi.

Konsertin sonunda Musiqi Kollecinin direktoru, əməkdar incəsənət xadimi, professor Nazim Kazımov Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru, xalq artisti Rauf Abdullayevə kollecin kollektivi adından minnətdarlığını bildirdi.

**Yusif ƏLİYEV,**
*"Azərbaycan müəllimi"*